15 iyun Milli Qurtuluş Günüdür

Heydər Əliyev Azərbaycanın şöhrətini bütün dünyada ucaldırdı

Millətin yüksəlişi çoxtərəfli və çox zəhmətli prosesdir. Bu fikir mədhiyyəni, özünümədhi, müxtəlif epitetlərin kəşf edilməsini nəzərdə tutmur. Millətin yüksəlişi bir neçə tərkib hissədən, bir neçə çox mürəkkəb vəzifədən ibarətdir və bunların optimal həlli milləti güclü və yaşamağa qabil edir. Heydər Əliyevin bütün ideya-nəzəri mirası və bütün uzunmüddətli siyasi ömrü ərzində onun tərəfindən görülən nəhəng praktik iş təkzibedilməz surətdə onu göstərir ki, o öz xalqını güclü, ideya, sosial və siyasi baxımdan yekdil, mənəvi, əxlaqi və mədəni cəhətdən zəngin görmək istəyirdi. Güclü millət, güclü ölkə, güclü dövlət - ümummilli lider Heydər Əliyevin praktik və siyasi fəaliyyətində hakim mövqedə olan, onun ideya-nəzəri irsində mərkəzi yer tutan faktorlar idi.

Güclü millət - bu ruhən güclü, inkişaf etmiş düşüncə və özünüdərklə, möhkəm intellektual və mənəvi resurslara malik millətdir. Heydər Əliyevin Azərbaycan xalqının milli şüurunun və özünüdərkinin inkişaf etdirilməsi haqda elmin, mədəniyyətin, təhsilin yüksəldilməsi barədə, milli və ümumbəşəri dəyərlərə optimal yiyələnmənin yol və üsullarının axtarılmasının zəruriliyi haqda mülahizələrini, məsləhət və tövsiyələrini məhz, millətin çiçəklənməsi, onun ruhunun və mənəvi sağlamlığının möhkəmləndirilməsi vəzifələrin baxış bucağı altında oxumaq lazımdır. Heydər Əliyev ümumiyyətlə mənəvi aşınmadan və o cümlədən bəzi məmur və vəzifə adamlarının əxlaqi naqisliyindən böyük həyəcanla və narahatlıqla danışırdı. Bu da güclü millətin formalaşması probleminin aspektlərindən biridir.

Bundan az aktual və az əhəmiyyətli olmayan digər problemi - millətin genefondunun qorunması problemi, narkomaniya və alkoqolizmlə mübarizə vəzifələri konteksində, eləcə də gənclərin əxlaqının, mənəviyyatının, fiziki və sosial inkişafının müxtəlif məsələlərinə toxunaraq, Heydər Əliyev, bu təzahürlərin millətin genofonduna mümkün mənfi təsirlərindən narahatlıq ifadə edir. Zira millətin genofonduna qayğı, eyni zamanda onun gücünə, sağlamlığına göstərilən qayğıdır.

Millətin yüksəlişinin ən başlıca istiqamətlərindən biri sosial tərəqqinin sürətləndirilməsi, insanların həyatı və hərtərəfli fəaliyyəti üçün bütün zəruri şərtlərin yaradılması, insan faktorunun optimal istifadəsi, şəxsiyyətin ahəngdar inkişafı şəraitinin təmin edilməsidir. Millətin yüksəlişi bizim qadının cəmiyyətdə roluna münasibətimizə radikal şəkildə yenidən baxmağımızı tələb edir, deyirdi Heydər Əliyev dəfələrlə.

Xalqının yüksəlişində Heydər Əliyevin rolunu araşdırarkən iki amili nəzərə almaq lazımdır.

Heydər Əliyev iki dövrün, iki sosial-siyasi sistemin və iki ictimai-iqtisadi formasiyanın siyasi və dövlət xadimidir. O, öz siyasi karyerasına ikinci yüzillikdə başlayıb və onu üçüncü yüzillikdə bitirib. O, XX əsrin 60-cı illərinin sonundan XXI yüzilliyin əvvəllərinədək Azərbaycana rəhbərlik edib. Onun siyasi, ideya-nəzəri və praktik fəaliyyətinin obyektiv xarakteristikası üçün bunun mühüm əhəmiyyəti var. Zira bir sistemin daxilindəykən digər, özüdə tam əks sistemin dəyər və prinsiplərini bütövlüklə və uca səslə iddia etmək mümkün deyil. Sosializm şəraitində o bu sistemdə mümkün olan hər şeydən istifadə edərək Vətəninə və xalqına xidmət edirdi və bu hakim ideologiyanın prinsipləri və sovet dövlətinin qanunlarına zidd deyildi. Beləliklə, sovet dövründə yüksək partiya və dövlət vəzifələrində ikən - Azərbaycan DTK-nın sədri, Azərbaycan KP MK-nın birinci katibi, Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev xalqını müdafiə edərək dövlətin qanunlarından və həmin sistemin prinsiplərindən məntiqlə istifadə edərək öz respubikasını qabaqcıl və çiçəklənən etmək üçün böyük səylər göstərirdi. Burda iki məqamı ayırmaq yerinə düşərdi. Əvvəla, o öz xalqını və respublikasını intəhasız dərəcədə sevirdi. Buna görə siyasi və dövlət fəaliyyətinin ilk günlərindən o, xalqına və Vətəninə fədakarcasına xidməti öz həyat prinsipi seçmişdi. İkincisi, Heydər Əliyev sosialist sisteminin bütün nüanslarını çox gözəl bilirdi. O, heç nəyin fərqinə varmadan, qorxu bilmədən qanunun imkan verdiyini mərkəzdən cəsarətlə tələb edə bilirdi.

Məlumdur ki, sovet dövründə hətta ən nəcib məqsədləri çox vaxt, "kommunist" qablaşdırmada, kommunizm quruculuğu görüntüsü altında reallaşdırmalı olurdun.

Sözsüz, xalqın üçün nə isə tələb edərkən bu tələbin kommunizm quruculuğunun həyata keçirilə bilən vəzifələri və zəhmətkeşlərin kommunist tərbiyəsi strukturuna uyğunlaşdırılması vacib idi. Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində Azərbaycan xalqının tarixinin müxtəlif dövrlərində yaşayıb-yaratmış görkəmli tarixi şəxsiyyətlərinin, Azərbaycan elminin və mədəniyyətinin məşhur xadimlərinin yubileylərindəki çıxış və nitqlərinin mətnləri ilə diqqətli tanışlıq onu göstərir ki, orada heç olmasa bir cümlə ilə demək lazım idi ki, Nizami, Füzuli, Nəsimi, Əcəmi, Tusi, Xaqani, Bəhmənyar, Sabir, Üzeyir Hacıbəyli, Cəlil Məmməd Quluzadə, Hüseyn Cavid - onların hamısı bizim müasirlərimizdir və bizimlə bir yerdə kommunizm quruculuğunda iştirak edirlər. Bu, əlbəttə, bulud dağıdan funksiyası yerinə yetirən özünəməxsus fənd idi. Əslində isə Heydər Əliyev bütün şüurlu həyatı boyu Azərbaycan xalqının möhtəşəm mədəniyyətinin və onun yaradıcılarının təbliğatı ilə məşğul olurdu. Onun hətta Azərbaycan mədəniyyəti klassiklərinin kommunizm quruculuğunda iştirakına aid cümlələrində bu şəxsiyyətlərin mütərəqqiliyi, böyüklüyü, onların dünya sivilizasiyasına verdikləri layiqli töhfə barədə dərin məna mövcuddur. Heydər Əliyevin Azərbaycan elminin və mədəniyyətinin onlarla parlaq nümayəndəsinə verdiyi obyektiv və yüksək qiymət eyni zamanda dünyaya qüdrətli şəxsiyyətlər yetişdirib vermiş xalqın istedadına və intellektual potensialına bir işarədir. Və burada məntiq son dərəcə aydındır: dünyanın sivilizasiyasının lideri adlandırır...

Bax elə bu qəbil əlamətlər və faktlar millətin mənəvi resurslarına daxildən xətər yetirir, cavanları yolundan sapdırır, milli vicdanımıza əzab verir.

Bu cür subyektlərin (onları insan adlandıra bilmirəm) həyat prinsipi olmaq yox, görünməkdir. Onlar vətənpərvər yox, yalançı vətənpərvərlərdir. Onlar ermənilərlə bir yedəkdə çığır-bağırla "Azərbaycan" və "azərbaycançılar" anlayışına qarşı çıxış edirlər. Və bu qətiyyən elmi həqiqətin bərpası, Azərbaycan xalqının çiçəklənməsi, ucalması naminə edilmir. Əksinə, Azərbaycan xalqının, Azərbaycanın uğurları onları qıcıqlandırır. Böyük Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən - azərbaycanlıyam" sözləri heç də onların ürəyincə deyil.

"Millət müəlliminin" qondarma duruşu bizə çoxdan tanışdı. Millət sevənlərin xalqı parçalamaq, adamları bir-birinə qarşı qoymaq cəhdlərini, kənardan gələn təlimatları qul kimi icra etmələrini yaxşı xatırlayırıq. Bütün bunların dərsini artıq keçdiyimiz üçün yalançı vətənpərvərlərin cəhdləri hədər və gülüş doğuracaq qədər mənasızdır. Ölkənin və xalqın həyatında inkişafımıza, yüksəlişimizə, tərəqqi və çiçəklənməyə təkan verən yeni mayaklar, istiqamətlər daha əsaslı və cəlbedici dəyərlər təzahür edir.

Prezident İlham Əliyevin oğlunun Azərbaycan ordusu sıralarında sadə fəhlə və kəndli balalarıyla birlikdə xidmət etməsi bir çoxları üçün gözlənilməz idi. Ölkə başçısının oğlunun bütün yaşıdları ilə birgə vətən əsgəri borcunu verməsi M.Bağırovdan sonra ilk belə haldır. Bütün siyasi elitanın, onların oğullarının, qohum və nəvələrinin bu nümunənin ardınca gedəcəyinə ümid etmək istərdim.

Məsələ ondadır ki, biz bir çox ölkələrdə güclü informasiya dəstəyinə malik olan ermənilərlə müharibə vəziyyətindəyik. Azərbaycanın istənilən ehtiyatsız addımı, istənilən düşünülməmiş addımı dərhal erməni təfsirinin predmeti olur... Oğurluq edən nazirlərin və digər yüksək vəzifəli məmurların obrazları isə erməni kütləvi informasiya vasitələrində dərhal millətin siması ilə eyniləşdirilir. Təəssüf ki, bizim kütləvi informasiya vasitələri bu neqativ təzahürlər və düşünülməmiş hərəkətlər aspektinə demək olar ki, diqqət ayırmır. Bununla yanaşı, ictimai rəyin - neqativlə mübarizədə bu çox vacib silahın son dərəcə zəif səfərbər olması da müəyyən narahatlıq yaradır.

Millətin yüksəlişi özünüsaflaşdırma olmadan baş verə bilməz. Özünüsaflaşdırma isə mütləq özünütənqid və ictimai rəyin bu prosesə effektiv qoşulmasını tələb edir ki, buna da Heydər Əliyev böyük əhəmiyyət verirdi.

Beləliklə, millətin yüksəlişi və çiçəklənməsi problemi göründüyü kimi çox tərəflidir və dövrün tələbi ilə aktuallaşmışdır. Biz bu məqalədə mövzunun yalnız bəzi tərəflərinə toxunduq. Millətin yüksəlişinin fundamental əsasları haqda nisbətən tam təsəvvürə malik olmaq üçün daha iki problem öyrənilməlidir: 1) Azərbaycan xalqının birliyi haqda Heydər Əliyevin ideyaları; 2) Azərbaycanın tərəqqisi haqda Heydər Əliyevin ideyaları.

Lakin bu, artıq gələcək məqalələrin mövzusudur.

Heydər Əliyevin musiqiyə, təsviri sənətə, memarlığa, poeziyaya, teatra və sənətin digər növlərinə incə zövqü haqda çoxlu məqalə və kitab yazılıb. Lakin onun istedadının daha bir tərəfi barədə hələ heç kəs heç nə yazmamışdır. Bu - görkəmli şəxsiyyətlərin obrazını yaradarkən, Heydər Əliyevin, eyni zamanda tarixə bu şəxsiyyətləri vermiş millətin avtoportretini canlandıra bilmək nadir bacarığıdır. Başqa sözlə. Nizaminin, Nəsiminin, Vaqifin, yaxud Nəriman Nərimanovun obrazının əsas cizgilərini canlandırarkən, Heydər Əliyev bununla yanaşı, eyni zamanda, millətin arzu və ümidlərinin əsl ifadəçisi kimi xalqının portretini yaradır. Azərbaycanın siyasi və dövlət xadimlərinin və ya görkəmli elm və mədəniyyət nümayəndələrinin xarakteristikalarında Heydər Əliyev bütövlükdə Azərbaycan xalqına xas xüsusiyyətləri seçir. Buna görə obrazın və Azərbaycanın görkəmli şəxsiyyətlərinin müsbət xarakteristikalarının təbliği əsas parametrlərinə görə, millətin başlıca xarakter, mənəvi və əxlaqi xüsusiyyətlərinin təbliği ilə uyğun gəlir. Azərbaycanda 30 ildən artıq müddət ərzində Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə keçirilmiş çoxsaylı yubiley tədbirləri bir əsas məqsədə - Azərbaycan xalqının mənəvi zənginliyini və mərdliyini, onun güclü intellektual potensialını və böyük mənəvi resurslarını bütün dünyaya göstərməyə xidmət etmişdir. Bu tədbirlər keçmiş SSRİ-də, eyni zamanda digər ölkələrdə və regionlarda Azərbaycan xalqı, onun keçmişi və bu günü haqda düzgün təsəvvürün formalaşmasına əhəmiyyətli dərəcədə imkan yaratmışdır. Heydər Əliyevin Azərbaycan xalqının tarixinin və mədəniyyətinin təbliği üzrə məqsədyönlü titanik fəaliyyətini sayəsində artıq XX əsrin 70-ci illərinin sonu 80-ci illərinin əvvəllərində keçmiş SSRİ ərazisində Azərbaycana və azərbaycanlılara münasibət nəzərə çarpacaq dərəcədə dəyişmişdir: Azərbaycan xalqı get-gedə daha çox Nizaminin, Füzulinin, Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Arif Məlikovun, Yusif Məmmədəliyevin və nəhayət Heydər Əliyevin xalqı kimi qəbul edilməyə başlanmışdı!

Bu, tarixi həqiqətdir.

Heydər Əliyev xalqının humanizm, ədalət, xeyirxahlıq, insanpərvərlik ideyalarıyla dolu qədim tarixinə və çox zəngin özünəməxsus mədəniyyətinə istinad edərək, onu yüksəldirdi. O, tarixi faktlar və hadisələrdən xalqını başqa xalqlara qarşı qoymaq, iyrənc məhdud millətçi meyillər aşılamaq üçün deyil, onda, keçmiş səhvləri təkrar etməsin deyə, milli şüur və özünüdərki oyatmaq üçün istifadə edirdi. Heydər Əliyevə görə tarixlə tarixi mədəniyyət - cəmiyyətin yekdilliyi, digər o cümlədən qonşu xalqlarla məqbul münasibətlərin qurulması üçün zəruri və başlıca amildir. Xalqının yüksəlişi üçün maksimum qüvvə sərf edən Heydər Əliyev tarixi həqiqətin bərpası, xalqın tarixi yaddaşının reanimasiyası yönündə müəyyənedici ideya gerçəkləşdirərək, azərbaycanlıların 1948-1953-cü illərdə öz tarixi torpaqlarında (Ermənistan SSR ərazisi) deportasiyası və azərbaycanlıların soyqırımı haqda 1997-1998-ci illərdə iki fərman imzalamışdır. Fərmanlarda keçmişdəki səhvlərin bir daha təkrarlanmaması üçün öz şəxsi qüsurlarımızın dəf edilməsi vəzifələrilə bağlı çoxsaylı problemlər nəzərə çarpdırılır. Təəssüf ki, bu sənədlər artıq unudulmuşdur və müvafiq strukturların ideoloji fəaliyyətində çox zəif istifadə olunur.

Özünüifadə, özünü reallaşdırma və özünütəsdiq kimi fundamental fəlsəfi problemlərin dərkində ümumi növbətçi kəlamlardan istifadə ancaq ziyan gətirir. Burada tarixi zamanı duyma bacarığı və dövrün xarakterini, ehtiyacını və tələbini dərindən bilmək son dərəcə zəruridir və Heydər Əliyev buna böyük əhəmiyyət verirdi. Müasir dövr müsbət dəyərləri tendesiyaları ilə yanaşı, həmçinin dini fanatizmdən tutmuş çoxsaylı müasir qərb ideoloji kəşflərinədək, sərt rəqabət, maddi və mənəvi istehsal sferalarında mübarizə, bütün dünyada əxlaqın aşınması, müxtəlif növ mənəvi çirkabın təbliği və intişarı kimi bir sıra neqativ təzahürlərlə də xarakterizə olunur və bunlar yalana, dünya ictimai fikrinin dezinformasiyasına və sadəlövh sıravi insanın araya qoyulmasına hesablanmışdır. Qərbn, xüsusilə Amerikanın neçə-neçə xalqın psixologiyasını ardıcıl güclü hücumu, təkcə Avropa deyil, Asiya qitəsinin də intellektual mühitinin sərbəst düşünmə iradəsi və bacarığını fəc edən kütləvi qərb mədəniyyəti tullantılarına qərq edilməsi, psevdodemokratik frazeologiyaya bükülü təkqütblü dünya siyasəti - bütün bunlar onlarla və yüzlərlə kiçik və böyük xalqın özünü reallaşdırmasına ciddi əngəl olan təsəvvürəgəlməz böyük maneələrdir. Xalqının özünü reallaşdırması və özünü təsdiqi barədə düşünən dövlət xadimi müasir dünyada müasirliyin təzahürlərinə, siyasət və həyatın nisbətinə dialektik yanaşma prinsiplərinə əsaslanaraq, bütün bunları nəzərə almalıdır. Teleekranlardan xalqa birilə "milli ideologiya" yaratmaq pioner sözü verən kəslərdən fərqli olaraq, Heydər Əliyev heç vaxt milli inkişafın çox mürəkkəb məsələlərinin sadə həllini axtarmırdı. Milli həyat - çox mürəkkəb, son dərəcə ziddiyyətli və daim yeniləşən sistemdir. Bu sistemin daxilində, digər sistemlər arasında yaranmış sosial xarakterli məsələlərin asan həllini axtarmaq, özünü uğursuzluğa düçar etmək deməkdir. Burda heç yerdə olmayan kimi zaman faktorunu da, cəmiyyətin real imkanlarını da, onun yetkinlik dərəcəsini və millətin tərəqqisiylə bağlı bütün vəzifələri və əlbəttə müasir dünyada baş verən prosesləri məsələn, qloballaşma proseslərini, yaradıcı və məqsədyönlü şəkildə həll edə bilmək hazırlığını nəzərə alan ciddi dialektik yanaşma tələb olunur. Heydər Əliyev məsələyə səthi yanaşıb tələsik qərar verən siyasətçilərdən deyildi. Millətin mütəşəkkilliyi, milli həyatın təşkilinin sivil formalarının tapılması, milli və sosial tərəqqinin sürətləndirilməsi problemləri bütün bunlar həlli təkcə böyük siyasi təcrübə və dövlət iradəsi deyil, həm də hərtərəfli dərin nəzəri biliklər tələb edən çox mürəkkəb məsələlərdir. Böyük siyasi təcrübə, həssas siyasi duyğu və hərtərəfli biliyi Heydər Əliyevə bütün şərtləri və ziddiyyətləri nəzərə almaqla bu problemləri həll etməyə imkan verirdi. O heç vaxt cəmiyyətin sosial, iqtisadi, siyasi yaxud mənəvi-əxlaqi problemlərini digər təzahür və proseslərdən təcrid edilmiş şəkildə araşdırmır, müzakirə etmirdi. O, milli həyatın hansısa tərəflərini ifadə edən anlayışlara Sov. İKP-nin "naftalin" tarixçilərinin etdikləri kimi bunların səslənməsi nöqteyi-nəzərindən deyil, təhlilin aydın ifadə etdiyi məntiq mövqeyindən milli həyatın hansı prosesə təzahürlərinin bu anlayışlarda adekvat ifadə edilməsi mümkünlüyündən yanaşırdı. Bu cür yanaşma Heydər Əliyevə milli həyatın və milli mövcudiyyətin təzahürlərinin bütün mozaikasını üzə çıxarmağa, prioitretləri müəyyənləşdirməyə, ümuminin və xüsusinin, hissənin və bütövün nisbətini metodoloji cəhətdən düzgün təyin etməyə imkan verirdi. Heydər Əliyevin millətin tərəqqisi problemlərinə üçüz populizmdən azad yaşaması, bu problemləri pərakəndə deyil, bir sistem şəklində görmək bacarığı, ona araşdırılan obyektin özünün hərəkət məntiqi, yəni milli həyatın, milli mövcudiyyətin real təzahürləri və prosesləri ilə kənar şərtlərin məntiqi arasında əlaqəni dəqiq duymağa kömək edir. Və Heydər Əliyevin siyasi düşüncə çevikliyi buna böyük ölçüdə imkan yaradırdı.

Beləliklə, Heydər Əliyevin xalqının yüksəlişinə istiqamətlənmiş praktik və siyasi fəaliyyəti sanballı metodoloji bazaya söykənir ki, bunun sayəsində də o, ikinci dərəcəli məsələlərə qüvvə və enerji sərf etmir, üzdə olanlara qapılmırdı.

Araşdırılan problemdə xalq və lider arasında münasibət relyefli şəkildə təzahür edir, bu vaxtacan öyrənilməmiş həlli vacib məsələlər ortaya çıxır.

Xalq və lider, liderin öz xalqının həyatında rolu, liderin iradəsi və məsuliyyəti xalqın liderin ideya irsinə münasibəti, liderin obyektiv obrazının yaradılması - bu suallar ümumi olaraq maraq kəsb edir, belə ki, bunlar hər bir xalqın həyatına aiddir. Azərbaycanda ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu haqqında kifayət qədər çoxlu kitablar və məqalələr yazılmış, filmlər çəkilmiş, şeirlər qoşulmuşdur. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü onun Azərbaycan xalqının həyatında bənzərsiz rolu daha yeni əsərlərin yazılacağına əminlik yaradır.

Heydər Əliyev dilin xalqın taleyində əvəzsiz rolunu yaxşı bilirdi. O, doğma dilini hədsiz dərəcədə sevir və onun gözəlliyini, zənginliyini, imkanlarını yüksək qiymətləndirirdi. Bunun üçün Heydər Əliyevin Milli Elmlər Akademiyasında Azərbaycan Respublikasının dövlət dili haqqında müzakirədə çıxışına müraciət etmək kifayətdir.

Heydər Əliyev dünyanın böyük tarixi mədəniyyətinə malik ən sivil xalqlarından birinin oğlu idi. O, bu böyük mədəniyyətin daxilində böyümüş və yüksəlmişdi.

Bəzən belə hökmlər verilir ki, guya 1969-cu ilə qədər Azərbaycan aqrar ölkə olub, Heydər Əliyev isə onu sənaye ölkəsinə çevirib. Bu tezis nəinki səhvdir, həm də ziyanlıdır. Azərbaycan respublikasının prezidenti Heydər Əliyevin yeni yüzillik və yeni minilliklə əlaqədar Azərbaycan xalqına məşhur müraciətini oxumayan adam belə danışa və yaza bilər. Bu müraciətdə əsaslandırılaraq göstərilmişdir ki, XIX və XX əsrlərdə Azərbaycan həm çar Rusiyası tərkibində, həm də SSRİ-də sənayecə ən inkişaf etmiş regionlardan biri olub.

Bu bəsit konsepsiya müəlliflərini daha bir mənbəyə baxmağa göndərirəm. XX əsrin 60-cı illərinin əvvəllərində alman kinorejissorları ər-arvad Torndayk dünyanın bütün ekranlarını dolaşmış "Rus möcüzəsi" sənədli filmini çəkiblər. Bu filmdə Azərbaycanın XIX əsrdə Rusiyanın beş ən inkişaf etmiş sənaye mərkəzlərindən biri olduğu sənədli şəkildə göstərilmişdir.

Digər sənədlərə də müraciət etmək olar. Lakin mətləb eynidir - Azərbaycan iki əsr ərzində sənayecə inkişaf etmiş ölkə olub. Sovet hakimiyyəti dövründə, xüsusilə Böyük vətən müharibəsindən sonra Azərbaycanın sənayesi yüksək templərlə inkişaf edirdi, ona görə respublikamız müsbət gəlir-çıxarlı üç respublikadan biri sayılırdı. Sumqayıt, Mirgəcevir, Əlibayramlı, dirəklər üstündə əfsanəvi şəhər - neft daşları məhz o dövrdə salınmışdır. Arasında Gəncə alüminium kombinatı, NBNZ, bir çox neft maşınqayırma, yüngül və qida sənayesi müəssisələri olan onlarla sənaye obyekti məhz o dövrdə Bakı, Gəncə və digər şəhərlərdə tikilmişdir.

Bütün bunlar Azərbaycanın 60-cı illərin sonuna qədər üstəlik zəif inkişaf etmiş kənd təsərrüfatı ilə aqrar respublika olduğu fikrini büsbütün təkzib edir. Bu məntiqə görə belə çıxır ki, XX əsrin 60-cı illərinin sonunacan Azərbaycan SSRİ tərkibində özgələr hesabına dolanan respublika olub.

Beləlikə, çar Rusiyası tərkibində də, 15 SSRİ respublikasından biri qismində də Azərbaycan kifayət qədər güclü infrastruktura malik sənayecə inkişaf etmiş mərkəzlərdən biri olub. Lakin XX əsrin 60-cı illəri üçün bir yığın problem əmələ gəlib və əvvəlki rəhbərlər bunları həll etmək gücündə olmayıblar. Nümunə kimi bu problemləri bu şəkildə ifadə etmək olar: həm sənaye, həm də kənd təsərrüfatı istehsalının azalması, əmək və mənəvi intizamın son dərəcə zəifləməsi, bir çox partiya və sovet orqanlarının işinin qeyri-effektivliyi və kadrların tutduqları vəzifəyə uyğun gəlməmələri, sənaye və kənd təsərrüfatı müəssisələrində texnika və avadanlığın mənən köhnəlməsi, rəhbər işçilərin nüfuzunun aşağı düşməsi, əməyə həvəsin respublikada nəzərə çarpacaq dərcədə azalması, iqtisadiyyatın və istehsalın bütöv sahələrində baxımsızlıq, mütərəqqi texnologiyaların defisiti və s.

Bütün bu problemləri sürətlə və effektiv həll etməyə təkcə bir şəxsiyyətin Heydər Əliyevin qüvvəsi çatdı. Onun möhkəm iradəsi, istedadı və qeyri-adi bacarıqları sayəsində sənaye və kənd təsərrüfatı istehsalı sürətlə canlandı və yüksək temp götürüb ahəngdar şəkildə inkişaf etməyə başladı. Onun zamanında onminlərlə, yüzminlərlə insanın çalışmaq həvəsinin, kütlələrin sosial və siyasi fəallığının yeni mərhələsi vüsət aldı. Vəziyyəti dəyişmək, partiya və sovet aparatını fırıldaqçılardan və təsadüfi adamlardan təmizləmək rəhbər işçilərin nüfuzunu qaldırmaq Heydər Əliyevə müyəssər olmuşdur. Və əlbəttə yeni yaradıcı tikinti bumu da Heydər Əliyev vaxtında yaşanmışdır. Bir-birinin ardınca yeni sənaye kompleksləri, zavodlar və fabriklər tikilir, respublikaya təzə texnologiya gətirilirdi. XX əsrin 70-ci illərində böyük səylər nəticəsində və bilavasitə Heydər Əliyevin başçılığı altında Sovet İttifaqı üçün tamamilə yeni olan Bakı məişət kondisionerləri tikilmişdir. Sov. İKP MK orqanı "Kommunist" jurnalı bu hadisəyə xüsusi məqalə həsr etmiş və tikintinin Heydər Əliyev metodlarını, bu unikal müəssisənin işə düşməsini "Azərbaycan fenomeni" adlandırmışdır. Desəm, səhv etmərəm: Heydər Əliyev partiya və dövlət idarəçiliyi sükanı arxasında gəmini elə hərəkətə gətirmişdi ki, keçmiş ittifaqın bir çox respublika və vilayətləri tez-tez onun təcrübəsinə müraciət edir, müsbət təcrübə üçün Azərbaycana gəlirdilər. Və mən iddia edirəm: bu xalqın yüksəlişinin mühün istiqamətlərindən biriydi. Üç yüz milyonluq Sovet İttifaqı Azərbaycana yeni nəzərlərlə baxmağa başladı. Buna səbəb zəhmət, quruculuq, yaradıcılıq, həvəs və respublikaya sərişləli, istedadlı başçılıq idi.

Qeyd edildiyi kimi xalqın yüksəlişi problemi çox aspektə malikdir. Qəzet məqaləsindəki məhdud imkanlara görə bu problemin daha vacib istiqamətləri üzərində qısaca dayanmaq istərdik. Əvvəla - bu Azərbaycan xalqını güclü etmək istəyi və məqsədidir. Bu Heydər Əliyevin fəaliyyətində təhsilə və mədəniyyətə, millətin intellektual potensialının çoxtərəfli məsələlərinə diqqəti nəzərə çarpacaq dərəcədə gücləndirilməsində ifadə olunub. İkincisi - millətin və cəmiyyətin sosial və mənəvi sağlamlaşdırılmasıdır. Sovet dövründə Heydər Əliyev tərəfindən bu istiqamətdə böyük iş aparılmışdır. Sovet zamanında o bu istiqamətdə mühüm vəzifələr müəyyən etmiş, lakin həll etməyə vaxt çatmamışdır. Burada mən ilk növbədə onun Naxçıvanda çıxışlarının birində qoyduğu rəhbər kadrlarının əxlaqı və məəviyyatı problemini nəzərdə tuturam. Üçüncü - milli ruhun gücləndirilməsi, milli şüurun və özünüdərkin inkişaf etdirilməsi xalqın tarixi yaddaşı haqda qayğıdır. Dördüncü - Azərbaycan xalqının müasir dünyada özünü reallaşdırması, özünütəsdiqi onun inkişaf etmiş xalqlar və ölkələrlə effektiv əməkdaşlığa hazırlığıdır.

Quruculuq, yaradıcılıq, zəhmət, mənəvi saflıq - budur millətin gələcək yüksəlişi imkanlarını təmin edən, Azərbaycan cəmiyyətinin sosial tərəqqisinin uğurlarını müəyyən edən amillər.

Quruculuq, yaradıcılıq, zəhmət, mənəvi saflıq - budur millətin gələcək yüksəlişi imkanlarını təmin edən, Azərbaycan cəmiyyətinin sosial tərəqqisinin uğurlarını müəyyən edən amillər.

Heydər Əliyevin Azərbaycan və Azərbaycan xalqı qarşısında böyük tarixi xidməti 90-cı illərin əvvəllərində ölkəni parçalamaq təhlükəsindən qurtarması və yeni müstəqil Azərbaycan dövlətinin qurulmasıdır.

Əmrəli İSMAYILOV.